# Regionda düzəni formalaşdıran Azərbaycandır

ABŞ və Avropa İttifaqının Ermənistanla ayrıca görüş keçirmələri və İrəvana bu kontekstdə dəstək nümayiş etdirmələri heç bir halda arzuolunan deyil. Lakin bu konfransın nəticələrinin neçəliyi regionda formalaşmış yeni düzəni dəyişə bilməz. Unutmaq olmaz ki, Cənubi Qafqazda mövcud reallıqları formalaşdıran Azərbaycandır. O Azərbaycan ki, keçmiş SSRİ məkanında münaqişələrə məruz qalmış ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam təmin edən ilk ölkədir.

3

# Regionda düzəni formalaşdıran Azərbaycandır

## ABŞ-Aİ-Ermənistan görüşünün nəticəsi mövcud vəziyyətə təsir göstərə biləcək səviyyədə deyil

"Aprelin 5-də Brüsseldə keçirilməsi planlaşdırılan müştərək konfrans Qərbin regionla bağlı məkrli planlarını bir daha ortaya çıxarır. Qərb Azərbaycanın Cənubi Qafqazda yaratmağa çalışdığı əməkdaşlıq mühitini dağıtmaqla və regionu militarizasiya etməklə, özünün hərbi mövcudluğuna nail olmaq istəyir. Ermənistan da ənənəvi olaraq bu prosesdə əl oyuncağı qismində çıxış edir".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Qafqaz bölgəsi həssas olduğuna görə aparıcı ölkə və birliklərin sözügedən bölgə ilə bağlı mövqelərində bu faktoru nəzərə almaları vacibdir: "Bu baxımdan, ABŞ və Avropa İttifaqının Ermənistanla ayrıca görüş keçirmələri və İrəvana bu kontekstdə dəstək nümayiş etdirmələri heç bir halda arzuolunan deyil. Lakin bu konfransın nəticələrinin necəliyi regionda formalaşmış yeni düzəni dəyişə bilməz. Unutmaq olmaz ki, Cənubi Qafqazda mövcud reallıqları formalaşdıran Azərbaycandır. O Azərbaycan ki, keçmiş SSRİ məkanında münaqişələrə məruz qalmış ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam təmin edən ilk ölkədir".

Deputatın sözlərinə görə, Azərbaycanın xarici siyasəti üçüncü dövlətə və ya dövlətlər qrupuna qarşı yönəlməyib. Ona görə də inkişaf etmiş ölkələr, xarici aktorlar Azərbaycanın ərazi bütövlüyünü tam təmin etməsilə regionda yaratdığı yeni imkanları daha yaxından dəstəkləməlidirlər. Regionda kommunikasiyaların bərpa edilməsinə, iqtisadi inkişaf üçün daha yeni imkanların yaradılmasına şərait yaratmalıdırlar. ABŞ və Avropa İttifaqı Ermənistanın əli ilə Qafqazda ikinci cəbhə açmağa cəhd etməklə heç nə əldə edə bilməyəcəklər.

"Qərbin Ermənistanı ayrıca dəstəkləmək və ya müdafiə etmək niyyətində olması məntiqli deyil. Onsuz da əldə olunan nəticə yalnız həmin konfransla bağlı ola bilər. Yəni üçlü konfransın nəticəsi regiondakı mövcud vəziyyətə təsir göstərə biləcək səviyyədə ola bilməz. Çünki bu gün regionda düzəni formalaşdıran məhz istənilən təhdidə cavab vermək gücündə olan, qətiyyətli və prinsipial mövqeyi ilə seçilən Azərbaycan dövlətidir", - deyə müsahibim qeyd edib.

Vüqar Bayramov yekunda vurğulayıb ki, Azərbaycan belə riyakar görüşlərə və müzakirələrə rəğmən uğurlu siyasətini davam etdirir: "Ölkəmizdə ordu quruculuğu, iqtisadiyyatın inkişafı ilə bağlı islahatlar davam etdirilir. Durmadan inkişaf edən bir ölkənin regiondakı geosiyasi və geoiqtisadi mövqeyinə isə təsir göstərə bilmək mümkünsüzdür. Cənubi Qafqazın gələcəyini düşünənlər qarşıdurmalara və müharibələrə son verməlidirlər. Tərəfimizdən təqdim edilən sülh və əməkdaşlıq təklifini qəbul edərək Azərbaycanla saziş imzalamaq Ermənistan üçün ən optimal çıxış yoludur.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.1, 3.